BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT: 341.1**

# BEYNƏLXALQ TƏŞKİLATLARIN TARİXİ VƏ GUAM

**A.O.ƏLİYEV**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***aliyev_asəf@yahoo.com***

*Gürcüstan,Ukrayna,AzərbaycanvəMoldovamüstəqilliikəldəetdikdənsonra bir çox beynəlxalq təşkilatlara üzv olmuşlar. Buna baxmayaraq bu dövlətlər yaranan tarixi şəraiti dəyərləndirərək oxşar və birgə maraqlarını təmin etmək məqsədilə regional beynəlxalq təşkilat kimi Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ı yaratmışlar. Məqalədə GUAM-ın yaradılmasını şərtləndirən amillərin bir qisminin qısa təhlili aparılır. Təşkilatın yaradılmasının hər üç mərhələsinə və beynəlxalq təşkilatların tarixinə də qısa nəzər yetirilir.*

**Açar sözlər:** GUAM, beynəlxalq təşkilat, beynəlxalq təşkilatlar tarixi, Məşvərət Forumu, GUÖAM Birliyinin

İndiyə kimi yaradılmış, tam həcmdə fəaliyyət göstərməyən və ya artıq fəaliyyətini dayandıran təşkilatlar da daxil olmaqla, bütün beynəlxalq təşkilatların yaradılmasını şərtləndirən amillər var. Bir qayda olaraq, bu amillər əsasən beynəlxalq təşkilatı yaradan dövlətlərin məqsədlərindən ibarət olur. Bəzən bu məqsədlər beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları ilə ört-basdır edilir, bəzən isə bu normalar içində gizlədilir. Təcrübə göstərir ki, beynəlxalq təşkilatların əsl mahiyyəti onların fəaliyyətində dominantlıq edən dövlətin və ya dövlətlərin siyasəti ilə üzə çıxır. Dünya düzəninin və beynəlxalq təhlükəsizliyin qorunması, təcavüzkar müharibənin qarşısının alınması, təcavüzkar dövlətə qarşı birgə mübarizənin aparılması, münaqişələrin sülh yolu ilə tənzimlənməsi, güc tətbiq etmənin və ya güc tətbiq etməklə hədələmənin qarşısının alınması, bütün üzv dövlətlərin bərabərliyi, rifahı və inkişafına xidmət edəcək yeni beynəlxalq normaların və qayda-qanunun yaradılmasını qarşısına məqsəd kimi qoyan bir çox dövlətlərarası beynəlxalq təşkilat bu məqsədlərə çatmağı bir və ya bir neçə böyük dövlətin maraqlarını qorumaq prizmasından görür. Belə təşkilatlar sırasına Birləşmiş Millətlər Təşkilatını (Təhlükəsizlik Şurasının 5 daimi üzvünün, özəlliklə də ABŞ-ın maraqlarından asılıdır), Müstəqil Dövlətlər Birliyini (Rusiyanın maraqlarından çox asılıdır) aid etmək olar.

Hansı beynəlxalq təşkilatın ilk beynəlxalq təşkilat olması və onun nə zaman

yaradılması barədə elmi ədəbiyyatda müxtəlif mülahizələr var. *G.J.Mangone* [11, 14] qeyd edir ki, **“Keçmişin müqavilələri beynəlxalq təşkilatların yaradılmasında ilk addım olmuşdur.”** Buna görə də o, beynəlxalq hüququn və dolayısı ilə beynəlxalq təşkilatların yaradılmasının başlanğıc nöqtəsi kimi eramızdan 2850 il əvvəl Şumerin iki şəhəri – Laqaş və Umma arasında bağlanmış ilk beynəlxalq müqaviləni götürmüşdür. Bu müqavilə dinc yaşamanı, dostluq münasibətlərini, xarici müdaxiləyə qarşı birgə mübarizəni nəzərdə tuturdu. O, eramızdan əvvəl 681-ci ildə qədim Çində kiçik dövlətlərin Çhu krallığına qarşı bir *Assambleyada* birləşmələrini beynəlxalq təşkilatın ilk cücərtisi kimi təqdim edir [11, 18]. İki yüz il ərzində bu *Assambleya* qeyri-müntəzəm toplanaraq ümumi düşmənə qarşı birgə mübarizə aparmağı müzakirə etmişdir. Müəllif qədim Yunanıstanda yaranan *Liqaları* da beynəlxalq təşkilatların prototipi kimi təqdim edir. Yer üzünün hələlik ilk konfederativ dövləti kimi tanınan *Lycian konfederasiyasını* beynəlxalq təşkilatların yaradılması yönündə növbəti addım kimi qiymətləndirən *G.J.Mangone* qeyd edir ki, bu *konfederasiyanın* məclisiildə iki dəfə toplanıb ölkə əhəmiyyətli məsələlərə dair səsvermə keçirirdi [11, 19].

İlk beynəlxalq təşkilatlanmaya qədim türklərin *Qurultaylarını* da aid etmək olar. Hələ Oğuz xanın dövründə xanlar ildə bir neçə dəfə xaqanın başçılığı ilə *qurultaya* toplaşardılar [21] “Dədəm Qorqud kitabı”nda da Oğuz bəylərinin ümumi maraqlar naminə xanlar xanı Bayandır xanın yanında toplantı keçirdiyi qeyd olunur [22]. Orxon-Yenisey daş kitabələrində isə Bilgə xaqanın özünün və ulu babası Yamı xaqanın türk – oğuz xanlarını bir yerə toplayıb müzakirələr apardığı qeyd olunur [1, 41, 63]. Qeyd edək ki, qurultay türklərdə imperiyadan vassal asılılığı olan dövlətlərin və ya böyük və güclü soyların toplantısı olub ümumi müdafiə məsələlərini müzakirə etmək, dövlət əhəmiyyətli işləri həll etmək, hərbi yürüşlərin strategiyası və taktikasını təhlil etmək, yüksək vəzifəyə təyinat aparmaq və öndərlərə titullar vermək kimi önəmli məsələləri həll edərdi. Örnək kimi Çingiz xanın çağırdığı *qurultayları* göstərmək olar. Qızıl Ordada çağırılan *qurultayları* da beynəlxalq konfranslar kimi qəbul etmək olar. Belə ki, bu toplantılarda türk xanları və bəyləri ilə yanaşı vassal asılılığında olan rus knyazlarının da iştirak etdiyi tarixdən məlumdur [2, 27-34; 15, 48, 63].

Yuxarıda qeyd olunan *assembleyalar, liqalar və konfederasiya* bir ulusun (millətin) toplantıları və birlikləri olsalar da, G.J.Mangone onları beynəlxalq təşkilatların ilk toxumu kimi qəbul etmişdir. Belə olduğu halda türklərin *qurultaylarını, özəlliklə də,* rus knyazlarının iştirakçısı olduğu Qızıl Orda *qurultaylarını* da beynəlxalq təşkilatların ilk cücərtisi kimi qəbul etmək olar.

Əgər diqqətlə araşdırsaq onda görərik ki, Roma Katolik Kilsəsi də uzun sürə katolik Avropa dövlətlərinin beynəlxalq qurumu kimi fəaliyyət göstərmişdir. Düzdür, Müqəddəs Taxt (Holy See) dövlətlər arasında hər hansı bir beynəlxalq müqavilənin imzalanması sonucunda yaranmamışdır. Amma onun çıxardığı qərarla (doqmat, kanon) katolik dövlətlər birlikdə dəfələrlə xaç yürüşləri həyata keçirmiş və ya birlikdə Osmanlı imperatorluğuna qarşı mübarizə

aparmışlar. Roma Papasının dövlətlər üzərində hökmranlığı Avropada protestant hərəkatının başlanması ilə laxlamış və 1648-ci il Vestfaliya Sülhü ilə bu hakimiyyətə son qoyulmuşdur. Ümumiyyətlə, Vestfaliya Sülhü deyəndə beynəlxalq hüquqa yeni yanaşma, yeni Avropa sistemi və yeni beynəlxalq münasibətlər sisteminin yaranması başa düşülür.

Hugo Grotiusun (Hüqo Qrotsi) dövlətlərin suverenliyi doktrinasının 1648-ci il Vestfaliya Sülhündən sonra özünün tam təsdiqini tapdığını vurğulayan *T.A.Walker* yazır ki,[1]**"Vestfaliya Sülhü beynəlxalq hüququ yaratmadı, amma bu sülh beynəlxalq hüququn əsl elm kimi qəbul edilməsinin əsasını qoydu"** [18, 57].

*G.J.Mangone* Vestfaliya Sülhünü yeni dövlət sisteminin (nation and secular state) yaradılması yönündə yeni dövr açan sülh kimi təqdim etmişdir [11, 21].

*L.Oppenheimeə* görə Vestfaliya Sülhü ilə bütün sivil[2] dövlətlərin dünyəvi başçı kimi Alman imperatorunun və dini başçı kimi Papanın rəhbərliyi altında birləşmə nəzəriyyəsi həmişəlik dəfn edilmişdir. Əksinə yeni müstəqil dövlətlərin tanınması ilə bütün üzv ölkələrin bərabərliyinə əsaslanan yeni cəmiyyətin formalaşdırıldığını qeyd edən *Oppenheime* bildirir ki, bu sülhdən sonra **Avropada tarazlıq** anlayışı Millətlər Ailəsinin üzvlərinin müstəqilliyinin sözsüz təminatçısı prinsipinə çevrildi [12, 60].

*M.Shaw* Vestfaliya Sülhünü təşkil edilmiş ilk beynəlxalq əməkdaşlıq kimi və Avropa siyasətində dünyəvi milli dövlət (nation-state) quruluşunun əsası kimi qiymətləndirir [13, 1282].

*C.F.Amerasinghe* isə Vestfaliya Sülhünün bəşəriyyət üçün əhəmiyyətini 1815-ci il Vyana Konqresi, 1899 və 1907-ci il Haaqa Konfransları və 1919-cu il Versal Müqaviləsi ilə bərabər tutur [3, 2-3].

*P.Malanczukun* yazdığına görə isə Vestfaliya Sülhü Avropada kollektiv təhlükəsizlik sistemini ortaya gətirmişdir. Belə ki, sülh sazişini imzalayan hər bir tərəf digər tərəflərə qarşı onun müddəalarını qorumağı öhdəlik kimi qəbul etmişdir və bu, 1815-ci il Vyana Konqresinə[3] kimi davam etmişdir. Tərəflərin aralarında yaranan mübahisələri sülh yolu ilə danışıqlar, barışıq, vasitəçilik və ya arbitraj vasitəsilə həll etməsi məhz Vestfaliya Sülhündən sonra başlamışdır. [10, 11, 20].

Ümumiyyətlə, beynəlxalq hüquqi ədəbiyyatda Vestfaliya Sülhü həm dünyəvi dövlət quruluşu, həm beynəlxalq münasibətlər sahəsində, həm beynəlxalq hüquq sahəsində, həm də beynəlxalq təşkilatlanma sahəsində qırılma nöqtəsi kimi qəbul edilir [4, 310; 7, 186; 8, 17; 9, 31, 120, 391, 598; 11, 20-21; 14, 9;

---

[1]Məqalədə gətirilən bütün sitatların tərcüməsi məqalə müəllifinindir.

[2] Demək olar ki, Birləşmiş Millətlər Təşkilatı yaranana kimi "sivil dövlət" deyəndə xristian dünyasının Avropa və Şimali Amerika qitələrində olan dövlətləri nəzərdə tutulurdu.

[3] 1815-ci il Vyana Konqresinin Avropa dövlətləri tərəfindən davamlı olaraq beynəlxalq konfransların keçirilməsi və o dövrün tarixi şəraiti nəzərə alınmaqla, kollektiv təhlükəsizlik sisteminin yaradılmasında önəmli təsiri olmuşdur.

16, 44, 48; 17, 52-65; 18, 147].

Bir çox beynəlxalq hüquqşünaslar və fikir adamları öz əsərlərində XVII əsrdən başlayaraq çağırılan *ad hoc* beynəlxalq konfransları beynəlxalq təşkilatların yaranması yolunda ən önəmli addım kimi qiymətləndirmişlər [3, 2-3; 5, 3-8; 6, p. 39; 13, 1282-1284]. *G.J.Mangone* bu barədə belə yazır: **"Sülh şərtləri konfransları zəruri edirdi, konfranslar isə beynəlxalq təşkilatlara gedən yolu açırdı"** [11, 20]. *J.Klabbersə* görə, dövlətlərarası münasibətlər sistemində dönüş nöqtəsi olan Vestfaliya Sülhündən sonra beynəlxalq "konqreslər" (konfranslar) diplomatiyanın davamlı metoduna (regular mode of diplomacy) çevrildi: **"harada problem qalxırdısa onu müzakirə etmək və mümkün olduqda, onun həlli yönündə addımlar atmaq üçün konfranslar toplanırdı"** [8, 17]. *M.Shaw* isə XVIII-XIX əsrlərdə bu və ya digər beynəlxalq əhəmiyyətli məsələni, özəlliklə müharibələrin bitməsi ilə təşkil olunan və ya müharibə qanunlarını və ya müharibənin aparılması qaydalarını norma halına salmaq məqsədilə çağırılan *ad hoc* beynəlxalq konfransların beynəlxalq siyasətə, beynəlxalq hüquqa və beynəlxalq təşkilatlanmaya təsirini qeyd etməklə yanaşı beynəlxalq qeyri-hökumət təşkilatlarının (1863-cü ildə yaradılmış Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti[1] və 1873-cü ildə təsis edilmiş Beynəlxalq Hüquq Assosiasiyası[2]) yaradılmasının da yuxarıda göstərilən sahələrə təsirinin böyük olduğunu vurğulayır və yazır ki, bu, **"özəl (private) beynəlxalq birliklər xüsusi məsələlər üzrə geniş ictimai marağı ortaya qoymuş və əməkdaşlığın xeyirli olması üçün onun beynəlxalq səviyyədə aparılmasını zəruri etmişdir"** [13, 1283]. Beynəlxalq təşkilatların yaradılması prosesində beynəlxalq konfransların yerini və önəmini həm də bu konfranslar zamanı qəbul edilən qərarların, beynəlxalq hüquqi sənədlərin[3] dövlətlər üçün əhəmiyyətliliyində, öhdəlik yaratmasında və məcburiliyində də görmək olar.

Beynəlxalq elmi ədəbiyyatda beynəlxalq təşkilatların yaradılması yönündə davamlı hərəkatın əsasının 1840-cı ildə çağırılan Ümümdünya Quldarlığa qarşı Konvensiya[4] ilə qoyulduğu barədə fikirlərə də rast gəlinir [20, 452].

Bəs bugünkü anlamda başa düşülən kimi ilk beynəlxalq təşkilat (dövlətlərarası müqavilə əsasında yaradılan, özünün strukturu və rəhbər or-

---

[1] İlk beynəlxalq təşkilatlardan biri - 1863-cü ildə İsveçrədə nə dövlətlər, nə də hər hansı bir xüsusiləşmiş qurumlar deyil, tək bir şəxs – İsveç iş adamı və ictimai fəal Henry Dunant (1828 – 1910) yaratmışdır.

[2] 1873-cü ildə Brüsseldə təsis edilsə də hazırda mənzil qərargahı Londonda yerləşir.

[3] Bu konfransların bəzilərində qəbul edilmiş konvensiyalar - 1864-cü il Cenevrə konvensiyası, 1899-cu və 1907-ci illər Haaqa konvensiyaları indi də qüvvədə olan beynəlxalq hüquqi sənədlərdir.

[4] 1840-cı ildə Londonda İngilis Kvakeri (Quaker – 17-ci əsrin ikinci yarısında İngiltərədə təsis edilmiş sülh və xeyriyyəçiliyi təbliğ edən protestant cərəyanının davamçısı) Joseph Sturge tərəfindən çağırılmış, Böyük Britaniya, ABŞ və bəzi Avropa dövlətlərini təmsil edən 300-ə yaxın nümayəndənin iştirak etdiyi qurultay tərəfindən yaradılmış Ümümdünya Quldarlığına qarşı Konvensiya (World Anti-Slavery Convention).

qanları olan, müəyyən məqsəd və vəzifələrə malik olan, qərarlar qəbul edən və ya beynəlxalq hüquq norması yaradan, beynəlxalq hüquq və öhdəliklərə malik olan və s.) hansıdır və onun yaranmasını şərtləndirən amillər nə olmuşdur? Beynəlxalq-hüquqi ədəbiyyatda bu suala fərqli yanaşmalar var.

*C.F.Amerasinghe* yazır ki, bu təşkilat bəlkə də 15 avqust 1804-cü ildə Fransa və Müqəddəs Roma İmperiyası arasında imzalanmış müqavilə ilə əsası qoyulan Administration général de l'octroi de navigation du Rhin (Reyn çayında gəmiçiliyə icazə verən Baş İdarə) adlanan qapalı təşkilat olmuşdur [3, 66]. *P.Malanczuka* görə ilk beynəlxalq təşkilat 1864-cü ildə yaradılmış Geodeziya Birliyidir [10, 22]. *G.J.Mangone* isə ilk beynəlxalq təşkilatın 1358-ci ildə əsası qoyulan və 400 ildən çox fəaliyyət göstərən Hanse Liqasının (Hanseatic League) olduğunu göstərir [11, 19-20]. **Bu təşkilatı həqiqətən də ilk beynəlxalq təşkilat kimi qəbul etmək olar.** Liqanın Lübekdə[1] inzibati mərkəzi və bütün üzv şəhərlərdə toxunulmazlıq statusu olan bölmələri olmuş, üzvlər üçün məcburi olan qərarlar qəbul edən Şurası (Diet) fəaliyyət göstərmiş, maliyyə xərcləri üzvlər arasında bölünmüşdür. Şimal və Baltik dənizləri sahillərində yerləşən 50 şəhəri özündə birləşdirən Liqa ilk sırada ticarət təşkilatı kimi yaransa da, sonralar siyasi xarakter almağa başlamışdır. Belə ki, Liqa təşkilata yeni üzvlərin qəbul edilməsi qaydalarını qəbul etmiş, üzv şəhərlərə ən azı dörd qonşu şəhərin razılığı olmadan müharibəyə girməsini qadağan etmişdir. Liqanın bütövlükdə müharibəyə girməsini isə yalnız Diet sanksiyalaşdıra bilərmiş. Göründüyü kimi, Hanse Liqası üzv şəhərlər üçün məcburi olan siyasi qərarlar verən və müharibəni bu və ya digər formada qadağan edən ilk təşkilat olmuşdur. Liqanın beynəlxalq təşkilat olduğunu göstərən bir amili də vurğulamaq gərək: baxmayaraq ki, Liqada yalnız şəhərlər birləşmişdir o, əsl beynəlxalq təşkilat olmuşdur. Belə ki, üzv şəhərlər Almaniya, Polşa, Böyük Britaniya, Danimarka, Belçika, İsveç, Estoniya, Litva, Rusiya və digər Şimal və Baltik dənizi hövzəsinə daxil olan ölkələri təmsil etmişdir.

Birinci Dünya Müharibəsi sonrası çağırılan Paris Versal Sülh Konfransının müqaviləsi nəticəsində universal sülhə və təhlükəsizliyə nail olmaq və beynəlxalq əməkdaşlığı həvəsləndirmək üçün Millətlər Liqası [36] və universal sülhə nail olmanın yalnız və yalnız sosial ədalət [37] əsasında mümkünlüyü nəzərə alınaraq Beynəlxalq Əmək Təşkilatı[2] yaradılmışdır.

Millətlər Liqasını yaradan böyük dövlətlər Liqanın Nizamnaməsi ilə müharibəyə əl atmamaq, digər millətlərlə açıq, səmimi və vicdanlı münasibətlər qurmaq, beynəlxalq hüququn hökumətlərarası münasibətlərdə əsas dav-

---

[1] Lübek (Lübeck) Quzey Almaniyada şəhər.

[2] 1919-cu il Versal Müqaviləsində insanların böyük əksəriyyətinin əmək şəraitinin pisliyi, əmək haqqının çox aşağı olması, ədalətsizlik, həyat səviyyəsinin aşağı olması sülhə və harmoniyaya (the peace and harmony) ciddi təhlükə kimi qiymətləndirilir və sosial ədalətin bərpa olunması üçün bunların aradan qaldırılması, habelə işçilərin, o cümlədən qadın və uşaqların əmək hüquqlarının qorunması məqsədilə Beynəlxalq Əmək Təşkilatının yaradılması qeyd olunur.

ranış qaydası olduğunu qəbul etmək, müqavilə öhdəliklərinə doğru və dürüst əməl etmək öhdəliklərini [36] götürsələr də bu öhdəliklərə əməl etmədilər.

İki dünya müharibəsi arası dövrdə beynəlxalq arenada bir tərəfdən Almaniya, Yaponiya və İtaliya birliyi, bir tərəfdən SSRİ və Çin, bir tərəfdən də ABŞ və Böyük Britaniya olmaqla dünya hökmranlığı uğrunda gedən mübarizə Millətlər Liqasının lazımi fəaliyyət göstərməsinə əngəl oldu. Demək olar ki, bu təşkilat tarixdə elə də ciddi iz qoymadı. Beynəlxalq Əmək Təşkilatı isə 1946-cı ildən bəri BMT-nin ilk xüsusiləşmiş orqanı [24] kimi bu gün də fəaliyyət göstərir.

İkinci Dünya Müharibəsi sonrası Yer kürəsinin universal beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı yaradıldı. BMT-yə onun üzərinə qoyulan məqsəd və prinsiplərə [33] çatmaqda həmişə Təhlükəsizlik Şurasının 5 daimi (ABŞ, Böyük Britaniya, Çin, Fransa və Rusiya Federasiyası) üzvünün maraqları böyük və aşılmaz maneə oldu [13, 1222, 1237]. Yarandığı tarixdən, hər hansı bir beynəlxalq məsələnin həllində, TŞ-nin beş daimi üzvünün maraqlarının həm ayrı-ayrılıqda bir-birilərinin maraqları ilə, həm də bütövlükdə BMT-nin ümumi maraqları ilə, demək olar ki, uzlaşmaması, habelə 1945-ci ildən sonra dünyanın iki cəbhəyə (kapitalizm və sosializm cəbhələrinə) bölünməsi çoxlu sayda beynəlxalq təşkilatların yaradılmasına nədən oldu. Bu təşkilatlar ərazi (region) əhatəsinə, funksiyalarına və ya yönümlülüyünə (iqtisadi, hərbi, idman, mədəniyyət və s.), dövlətlərarası və ya qeyri-hökumətlərarası (beynəlxalq qeyri-hökumət təşkilatları, məs., Transparency İnternational (1993) [26], Human Rights Watch (1978)) [27] olmasına, üzvlərinin sayına və s. özəlliklərinə görə fərqləndirilirlər.

Uzun sürən "böyük oyun" paradiqmasının əsas aktorları SSRİ donunda Rusiya (sosialist düşərgə) ilə ABŞ (kapitalizm düşərgəsi) arasında iqtisadi, siyasi, hərbi və ideoloji sahələrdə soyuq müharibə getmişdir. S.M.Roqov qeyd edir ki, *iqtisadi sahədə* sovet-amerika münasibətləri iki mülkiyyət sisteminin münaqişəsini ifadə edirdi. İki ölkə arasında mübarizə bir-birini iqtisadi cəhətdən gücdən salmağa yönəlmişdi. *Siyasi sahədə* SSRİ və ABŞ Yer kürəsinin bütün regionlarını əhatə edən qlobal rəqabət aparırdılar. İstənilən beynəlxalq münaqişə bu mübarizənin seqmentinə çevrilirdi. *Hərbi sahədə* iki ölkə arasında nüvə silahları da daxil olmaqla qızğın silahlanma gedirdi. Nəticədə nisbi hərbi strateji bərabərlik yaranmış, "qarşılıqlı nüvə çəkindirmə" (система «взаимного ядерного сдерживания») sistemi formalaşmışdı. *İdeoloji sahədə* barışmaz qarşıdurma ona yönəlmişdi ki, hər iki tərəf bir-birinin siyasi və sosial-iqtisadi sisteminin legitimliyini şübhə altına alırdı [19, 6]. Sosializm sisteminin çökməsi bu düşərgəyə daxil olan Şərqi Avropa dövlətlərini və SSRİ-yə daxil olan üç Baltikyanı dövləti kapitalist Qərbi Avropanın qucağına atdı. Uzun müddət Avropa Birliyinə üzv olmağa can atan Türkiyə (1959-cu ildən Avropaya inteqrasiya siyasətini götürən Türkiyə 1963-cü il Ankara Sazişi kimi tanınan "assosiasiya sazişi" çərçivəsində əməkdaşlığı daha da genişləndirə bilmişdir. 1987-ci ildən Türkiyə AB-yə tamhüquqlu üzv olmaq üçün çalışsa da hələ buna nail ola bilməyib) [28] ora daxil ola bilmədiyi halda Şərqi Avropa dövlətləri və

Baltikyanı ölkələr (Çex Respublikası, Macarıstan, Polşa, Slovakiya, Sloveniya və üç Baltikyanı dövlət (Estoniya, Latviya və Litva) 2004-cü ildə, Bolqarıstan və Rumıniya 2007-ci ildə, keçmiş Yuqoslaviya Sovet Federativ Respublikasına daxil olan Xorvatiya isə 2013-cü ildə AB-yə üzv olmuşlar) [28] AB-nin tam hüquqlu üzvü oldu. Avropanın sərhədləri MDB-nin (Rusiya Federasiyası, Ukrayna, Belorus və Moldovanın qərb sərhədləri) sərhədlərinə kimi genişləndi. Beləliklə, AB coğrafi anlamda Avropanı demək olar ki, yarısına kimi əhatə etdi.

Sosializm düşərgəsinin dağılmasından sonra Avrasiya materikində birneçə beynəlxalq təşkilat yaradılmışdır. Belə təşkilatlardan biri də **Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM olmuşdur.** Təşkilatın yaradılması üç mərhələyə bölünür: Məşvərət Forumu GUAM, GUAM birliyi və Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM [23]. Təşkilatın yaradılmasını şərtləndirən amillər sırasında təkcə üzv dövlətlərin təhlükəsizlik, siyasi, iqtisadi, hərbi maraqlarını qeyd etsək düzgün olmazdı. Bu amillər sırasında böyük dövlətlərin regionda mövqe uğrunda mübarizəsini də göstərsək, məncə yanılmarıq.

GUAM-ı yaradan dövlətlər – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova həm geniş ikitərəfli əlaqələrə malik dövlətdirlər, həm də BMT, Avropa Şurası, MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər. Bəs bu dörd dövləti ayrıca bir beynəlxalq təşkilat yaratmaq qərarına gətirən nə oldu? Bu suala cavab tapmaq üçün elmi, siyasi, iqtisadi yöndə çoxsaylı məqalələr yazılmışdır. Hansı məqalənin daha çox həqiqəti əks etdirdiyini demək çətindir. Bu təşkilatın yaranma nədənini tam dəqiq bilən onu yaradan dörd ölkənin dövlət başçılarıdır. Onların GUAM yaradılarkən mətbuata verdikləri açıqlama və GUAM Nizamnaməsində əks olunan məqsəd və prinsiplər, təbii ki, bu təşkilatın yaranma nədəninin ictimaiyyət üçün açıq olan hissəsini göstərir. Bağlı qapılar arxasında keçən görüşlərdə daha hansı maraqların danışıqlar masasına qoyulduğunu dəqiq bilmək üçün yəqin ki, zamana ehtiyac var. Bununla belə elmi ədəbiyyatda GUAM-ın yaradılmasında maraqlı olan tərəf kimi tək onu yaradan dörd ölkəni deyil, həmdə ABŞ və Qərbi Avropa dövlətlərini göstərənlər də var.

Sosializm düşərgəsinin dağılması sonucunda genişlənən AB ABŞ-ın qanadları altından çıxaraq bütün dünyada, özəlliklə də Avropada "böyük oyun" paradiqmasının fəal və mühüm aktoruna çevrildi. ABŞ və Avropa Birliyinə daxil olan dövlətlərlə Rusiya Federasiyası arasında mübarizə bu gündə davam edir. Bu gündə hər bir tərəf digər tərəfi beynəlxalq arenada öz maraqlarının təmin olunmasında əsas rəqib kimi qiymətləndirir və dolayısı ilə öz təhlükəsizliyinə real təhlükə kimi qəbul edir. Bu gündə təsir dairəsi uğrunda bəzən açıq, bəzən də gizli mübarizə davam edir. Rusiyanı əhəmiyyətli beynəlxalq iqtisadi layihələrdən təcrid etmək, onu tam zəiflətmək, kontinentdə Rusiyanın enerji hökmranlığına son qoymaq və nəhayət dünyanın altıda bir hissəsini tutan bu nəhəng dövləti beynəlxalq siyasətdən uzaqlaşdırmaq ABŞ və Qərbi Avropanın siyasətinin ana xətlərindən birini təşkil edir. Rusiya Federasiyasının da

ABŞ və Qərbi Avropaya münasibəti demək olar ki, eynidir. ABŞ və Qərbi Avropanın bu yöndə fəaliyyətinin bir hissəsini Rusiyaya "ənənəvi və məcburi" müttəfiqlərinin əli ilə zərbə vurmaq təşkil edir. Bu mənada keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalar, üç Baltikyanı dövlətdən başqa, müstəqillik əldə edən andan geosiyasi arenanın əsas oyunçuları, daha doğrusu oyun şərtlərini müəyyən edən oyunçuları arasında mübarizə meydanına çevrildilər.

Çar Rusiyasının tərkibində olarkən bu respublikaların iqtisadi əlaqələri, o dövrün tələblərini belə yetərincə ödəməyən, zəif nəqliyyat infrastrukturu vasitəsilə qurulmuşdu. Sov.İKP-nin rəhbərliyi altında SSRİ dövründə isə iqtisadiyyatın bütün digər sahələri bu dövlətləri bir-birinə çox sıx bağlamışdı. Müstəqillik əldə etdikdən sonra iqtisadi əlaqələri saxlamaq mümkün olmadı. Sanki "görünməz əl" dünən bir dövlət içində birgə yaşayan bu dövlətləri bir-birindən aralayırdı. SSRİ-dən, daha doğrusu Sovet Rusiyasından təzə "qopmuş" respublikalar dağılmış iqtisadiyyat və işsiz əhali ilə müstəqil addımlarını necə atacaqlarını hələ yetərincə bilmədikləri bir zamanda bəzi respublikaların daxilində separatizmin baş qaldırması və bir çox hallarda bunun müharibəyə çevrilməsi, bir respublikanın xarici güclərin açıq və ya dolayı dəstəyi ilə digər respublikaya qarşı ərazi iddiası ilə çıxış etməsi və ya təcavüzkar müharibəyə başlaması keçmişdə "qardaşlaşmış" respublikaları öz gələcəklərini birlikdə qurmağa imkan vermədi. SSRİ-nin dağılması "şokundan" ayılan Rusiya keçmiş "qardaşlarını" bir araya gətirmək və keçmiş SSRİ məkanında öz nüfuzunu bərpa etmək qərarına gəldi. Rusiyanın siyasi dairələrinin, hərbi-sənaye kompleksinin və DTK-nın ərsəyə gətirdiyi Müstəqil Dövlətlər Birliyinə (MDB) keçmiş müttəfiq respublikalardan 11-i (12-ci dövlət Rusiyadır) "könüllü" daxil oldu[1]. Amma MDB, Rusiyanın gözlədiyi kimi, hərbi-siyasi və iqtisadi cəhətdən o qədər də səmərəli təşkilata çevrilmədi. MDB-yə üzv olan bəzi dövlətlərin bir-birilərinə qarşı gizli və ya açıq şəkildə ərazi iddiası ilə çıxış etməsi və ya müharibə vəziyyətində olması bu təşkilatın nəinki ümumi təhlükəsizlik məsələlərini həll edə bilməyəcəyini ortaya qoyurdu, hətta təşkilatın özünün səmərəli fəaliyyətini belə şübhə altına alırdı. Buna görə də rəsmi Moskva 1992-ci ilin mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkənin - Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın iştirakı ilə MDB-dən kənar hərbi təşkilatı - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını yaratdı[2] [29].

[1]Baltikyanı respublikalar (Latviya, Litva və Estoniya) MDB-yə daxil olmadılar. Rusiya onları MDB-yə cəlb etmək üçün elədə ciddi səy göstərmədi. Çünki, ABŞ və Qərb bu üç respublikaya qarşı hər hansı bir basqını özlərinə qarşı basqı kimi dəyərləndirirdilər.

[2]Quruma sonradan Azərbaycan (24 sentyabr 1993-cü il), Gürcüstan (9 dekabr 1993-cü il) və Belarus (31 dekabr 1993-cü il) müşahidəçi qismində qoşuldular. Digər MDB üzvləri – Ukrayna, Moldova və Türkmənistan ümumiyyətlə bu qurumda iştirakdan imtina etdilər. Bir qədər sonra, KTMT-in prinsipləri, məramı və şərtləri Azərbaycan və Gürcüstanı qane etmədiyindən, hər iki ölkə bu təşkilatla əməkdaşlıqdan imtina etdi, 1999-cu ildən isə qurumda müşahidəçi qismində iştiraklarını da dayandırdılar. 19 dekabr 2012-ci ildən Özbəkistan da KTMT-da üzvülüyünü dayandırdı.

MDB üzvü olan dövlətlərdən dördü (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova) öz təhlükəsizliyini Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) görmədilər. MDB çərçivəsində elə də fəal olmayan bu dövlətlər KTMT-dan da kənar qalmağı üstün tutdular. Müstəqillik əldə edən gündən Avro-Atlantik məkana inteqrasiyanı əsas hədəf kimi görən dörd dövlət iqtisadi baxımdan Rusiya ilə çox sıx bağlı olduğundan təbii ki, bu inteqrasiyanın yaxın gələcəkdə baş verməyəcəyini də yaxşı bilirdilər. Bir də ki, Qərbin Baltikyanı respublikalara münasibəti ilə keçmiş SSRİ-yə daxil olan digər dövlətlərə münasibəti çox fərqlənirdi. "Sivil" Qərbin düşüncəsinə görə, Baltikyanı millətlər "sivil" millət olduqları üçün doğma, digər millətlər isə "sivil" olmayan millətlər olduqları üçün yad idilər.[1] Buna görə də, Avro-Atlantik məkan onlara, yəni "sivil" olmayan dövlətlərə görə Rusiya ilə münasibətlərini kəskinləşdirmək istəmirdi və keçmiş "müttəfiq" respublikaların Rusiyanın təsir dairəsində olmasını arzulamasa da, onların təsir dairəsindən kənarda qalmasına elə də ciddi dəstək vermirdi.

GUAM dövlətləri öz təhlükəsizliklərini, iqtisadi inkişaflarını, sosial rifahlarını gücləndirmək məqsədilə birgə fəaliyyət göstərməyə məhkum idilər. Dörd dövlətin yeni təşkilat yaratmaq barədə danışıqlara nə zaman başladığı bilinməsə də, onun nəticəsi 10 oktyabr 1997-ci il tarixdə üzə çıxdı. Həmin gün həm hər dörd ölkənin tarixinə, həm beynəlxalq təşkilatlar tarixinə, həm də beynəlxalq münasibətlər tarixinə GUAM-ın yardılması tarixi kimi düşdü. Belə ki, 1997-ci il oktyabrın 10-da Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası və Ukrayna Prezidentlərinin Strasburqda, Avropa İttifaqı ölkələrinin zirvə toplantısında, Birgə Kommünike imzalaması ilə GUAM-ın yaradılması yolunda ilk mərhələyə qədəm qoyulmuş, bu dörd dövlətin **Məşvərət Forumu GUAM** [23] fəaliyyətə başlamışdır. Kommünikedə Prezidentlər suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, demokratiya, hüququn aliliyi və insan hüquqlarına hörmət prinsipləri əsasında Avropada sabitliyin və təhlükəsizliyin gücləndirilməsi məqsədilə dördtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulamış və Kommünikedə göstərilən məsələlərlə bağlı müxtəlif səviyyələrdə dialoqun davam etdirilməsi barədə razılığa gəldiklərini qeyd etmişlər [34]

Təşkilatın yaranmasında ikinci mərhələ 7 iyun 2001-ci il tarixdə GUÖAM (1999-2005-ci illərdə Özbəkistan da bu birliyin üzvü olduğu üçün birlik GUÖAM adlanırdı) ölkə başçılarının Yalta zirvə toplantısında Yalta Xartiyasının qəbulu ilə başlayır. Yalta Xartiyasını Birgə Kommünikedən fərqləndirən çox cəhət var. İlk öncə onu qeyd edək ki, Birgə Kommünikedən fərqli olaraq Yalta Xartiyasında artıq təşkilatlanmanın ilk izləri görünür. Yuxarıda qeyd edildiyi kimi, Birgə Kommünike ilə GUAM-ın əsası **Məşvərət Forumu** statusunda qoyulmuşdu. Yalta Xartiyası ilə isə **GUÖAM Birliyi** yaradıldı. Beləliklə,

[1]"Sivil" dövlət anlayışı elmi ədəbiyyatdan demək olar ki, tam silinsə də, bir çox qərb siyasətçilərin dilində bu, buğun də səslənməkdədir.

7 iyun 2001-ci il tarixdən başlayaraq **Məşvərət Forumu GUÖAMBirliyi** adlandırılmağa başladı. Xartiyada GUÖAM Birliyinin **məqsədi, prinsipləri, fəaliyyət istiqamətləri, təşkilati quruluşu və qərarların qəbul edilməsi qaydası** [35] öz əksini tapmışdır. Bununla belə, Xartiya ilə tanış olduqda görünür ki, GUÖAM Birliyini hələ tam mənasında təşkilat adlandırmaq olmaz. Məşvərət Forumu GUAM-dan fərqli olaraq artıq GUÖAM Birliyinin ilkin fəaliyyət istiqamətləri müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

- iqtisadiyyat, elm, texnologiya və ətraf mühit;
- nəqliyyat infrastrukturu, energetika, telekommunikasiya;
- qarşılıqlı yatırım və maliyyə layihələri, humanitar sahə, mədəniyyət, təhsil, kütləvi informasiya vasitələri, turizm, gənclər mübadiləsi;
- qarşılıqlı maraq doğuran digər istiqamətlər [35].

Hələ təşkilatlanma mərhələsində olan GUAM təbii ki, fəaliyyət istiqamətlərini başqa cür də göstərə bilməzdi. Çünki, 1997-ci ildə Strasburqda **Məşvərət Forumunun** yaradılması elan olunduqdan sonra həm Rusiya, həm Qərb, həm də GUAM ölkələrinin mətbuatında bu, Rusiyaya qarşı və MDB-yə alternativ təşkilat kimi qiymətləndirilirdi. Buna görə də, Yalta Xartiyasında GUÖAM Birliyinin fəaliyyət istiqamətləri "heç kimin maraqlarına toxunmayacaq" şəkildə müəyyən edilmişdi.

Azərbaycan, Ukrayna, Gürcüstan və Moldovanın dövlət başçılarının 23 may 2006-cı ildə Kiyev sammitində[1]**Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın** təsis sənədinin – Nizamnaməsinin imzalanması ilə GUAM-ın yaradılmasında üçüncü və sonuncu mərhələyə ayaq qoyuldu.

**"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM"** beynəlxalq regional təşkilat kimi yaradılmışdır. Təşkilatın Nizamnaməsinin preambulasında onu yaradan dövlətlər açıq şəkildə bəyan etmişlər ki, GUAM Qrupunun (rus dilində olan variantda Birlik – Объединение) "Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM" adında beynəlxalq regional təşkilata [30] çevrilməsi barədə razılığa gəlmişlər.[2]

Yuxarıda qeyd etdiyimiz kimi, bütün beynəlxalq təşkilatların yaradılmasını şərtləndirən amillər var. GUAM-ın yaradılmasını şərtləndirən amillər, ilk növbədə, onun məqsədləri kimi Nizamnaməsinin 1-ci maddəsində əks olunub. [30] Bunlar aşağıdakılardır:

- demokratik dəyərlərin təsdiq edilməsi, hüququn aliliyinin və insan hüquqlarının təmin olunmasının təmin edilməsi;
- davamlı inkişafın təmin edilməsi;

---

[1] Özbəkistan 2005-ci ildə GUAM-da fəaliyyətini dayandırdığı üçün bu sammitdə iştirak etmirdi.

[2]GUAM Nizamnaməsinin 24-cü maddəsində deyilir ki, rus və ingilis dillərində tərtib edilmiş Nizamnamənin müddəalarının şərhində mübahisə yarandığı halda ingilis dilində olan mətn daha üstün qüvvəyə malik olacaq (In case of divergences in the interpretation of provisions of the present Charter, the English text shall prevail). Buna görə, məqalədə GUAM Nizamnaməsinin ingilis dilində olan mətninə istinad olunur.

- beynəlxalq və regional sülhün və sabitliyin təmin edilməsi;
- ümumi təhlükəsizlik sahəsinin, həmçinin iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi üçün Avropada inteqrasiyanın dərinləşdirilməsi;
- tərəflərin sosial-iqtisadi, nəqliyyat, enerji, elmi-texniki və humanitar potensialının inkişaf etdirilməsi;
- qarşılıqlı maraq doğuran sahələr üzrə siyasi əlaqələrin və praktiki əməkdaşlığın intensivləşdirilməsi.

Nizamnamədə təşkilatın Şura və Katiblikdən ibarət olan struktur quruluşu (Şura Dövlət Başçıları, xarici işlər nazirləri, milli koordinatorlar və daimi nümayəndələr səviyyəsində işini qurur), təşkilata rəhbərlik etmə ardıcıllığı, maliyyə təminatı, qərarların qəbul edilməsi üsulu, təşkilatda üzvlük (yeni üzvlərin qəbulu və ya üzvlüyə xitam verilməsi), fəaliyyəti və beynəlxalq əlaqələri, təşkilatın üstünlük və toxunulmazlığı, Nizamnaməyə dəyişiklik və əlavələrin edilməsi və digər məsələlər öz əksini tapmışdır [30].

**GUAM** beynəlxalq təşkilatlar arasında çox az təşkilatlardandır ki, onu bərabər dövlətlər yaradıb. Yəni GUAM üzvlərindən heç biri digərindən bu və ya digər formada asılı deyil və bu təşkilat hər dörd dövlətin – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın ümumi məqsədlərindən yaranıb. Buna görə də GUAM ayrılıqda dörd dövlətdən heç birinin marağından asılı təşkilat deyil, əksinə eyni zamanda bütün üzv dövlətlərin marağından asılıdır. GUAM onu yaradan dövlətlərin hamısının maraqlarını eyni dərəcədə əks etdirdiyi üçün bu təşkilat daxilində qəbul edilən qərarlar hər bir tərəfin razılığı olduğu halda qəbul edilir [30]. GUAM-ın üzv dövlətlərdən asılılığını və ümumiyyətlə fəaliyyətini bir fikirlə belə xarakterizə etmək olar: **Ya hər dörd dövlət üçün hər şey, ya da ayrı-ayrılıqda heç bir üzv dövlət üçün heç nə.**

**ƏDƏBİYYAT**


1. Əsgər Ramiz. Orxon abidələri. Bakı: Elm və təhsil, 2012, s. 270
2. Похлебкин Вильям Васильевич. Татары и Русь. 360 лет отношений Руси с татарскими государствами в 1238-1598 гг. М.: Международные отношения, 2000 с.189
3. Amerasinghe, Chittharanjan Felix: “Principles of the institutional law of international organizations”, 2nd rev. ed. - New York, Cambridge University Press, 2005, p.xxxiv, 535Anghie, Antony: “Imperialism, Sovereignty and the Making of International Law”, Cambridge University Press, New York, 2004, p. xix, 356
5. Archer, Clive: “International Organizations” Third edition, Taylor & Francis Group, London and New York, 2001.p.xi, 204
6. Brölmann, Catherine: “The Institutional Veil in Public International Law”, Hart Publishing, Portland, USA, p.xvi, 313
7. Edmundson, William A.: “An Introduction to Rights”, Cambridge University Press, New York, 2004, p. xv, 223
8. Klabbers, Jan: “An introduction to International Institutional law”, Published in the USA by Cambridge University Press, New York, 2002, p. xxxviii, 399
9. Lawrence, Thomas Joseph: “The principles of international law”, By T.J.Lawrence, M.A., LL.D. Boston, New York, Chicago, 1911, p xxi, 745
10. Malanczuk, Peter: “Akehurst’s modern introduction to international law”, 29 West 35th Street, New York, NY 10001, Seventh edition 1997, p. xxii, 449

11. Mangone, Gerard J.: “A Short History of International Organizations”, McGraw-Hill, New York, 1954, p. xii, 326
12. Oppenheim, Lassa: “A treatise”, Vol. I, Peace, Second edition, Longmans, Green and Co., London, New York, Bombay and Calcutta, 1905, p. xxvi, 610
13. Shaw Malcolm N.: “International law”, Sixth edition, Cambridge University Press, The Edinburgh Building, Cambridge CB2 8RU, UK, 2008, p. clxvi, 1542
14. Simpson Gerry: “Great Powers and Outlaw States. Unequal Sovereigns in the International Legal Order”, Cambridge University Press, New York, 2004, p. xix, 391
15. Telfer Commander J. Buchan, "The Bondage and Travels of Johann Schiltberger". London, Hakluyt Society, 1879, p.xiv, 272
16. Westlake John: “International Law Part I Peace”, Cambridge University Press, By John Westlake, K.C., LL.D., 1910 p. xii, 343
17. Westlake, John: “The Collected Papers of John Westlake On Public International Law”, Cambridge University Press, Edited by L. Oppenheim, M.A., LL.D. 1914, p.xxix, 708
18. Walker Thomas Alfred: “A History of the Law of Nations”, Vol. I., Cambridge University Press, 1899, p.xxx, 361
19. Рогов Сергей Михайлович: “Возможна ли новая “холодная война” между Россией и США?” // Журнал “Россия и Америка в XXI веке”. (Москва)2007. № 3.
20. Maynard Douglas H.: “The World's Anti-Slavery Convention of 1840”, // Published by: Organization of American Historians, The Mississippi Valley Historical Review, Vol. 47, No. 3 (Dec., 1960)
21. Фазллаллах Рашидаддин: “Огуз-наме” http://www.vostlit.info/Texts/rus14/Tarich_Rashidi/lit.phtml
22. “Kitabi Dədə-Qorqud. Əsl və sənədləşdirilmiş mətnlər” http://www.anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf
23. Official website of GUAM: http://guam-organization.org
24. Official website of International Labour Organization: http://www.ilo.org
25. Official website of UN: http://www.un.org
26. Official website of Transparency International:http://www.transparency.org
27. Official website of Human Rights Watch: http://www.hrw.org
28. Official website of European Union: http://europa.eu
29. Официальный интернет сайт Организации Договора о Коллективной Безопасности: http://odkb-csto.org/
30. Charter of Organization for Democracy and Economic Development – GUAM (23.05.2006)
31. Covenant of the League of Nations (28.06.1919)
32. Treaty of Versailles (28.06.1919)
33. Charter of the Unated Nations (26.06.1945)
34. Joint Communique of the President of Azerbaijan, Georgia, Moldova and Ukraine (10.10.1997)
35. Ялтинская Хартия ГУУАМ (7.06.2001)
36. http://avalon.law.yale.edu/
37. http://www.firstworldwar.com/

## ИСТОРИЯ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ И ГУАМ

**А.О.АЛИЕВ**

**РЕЗЮМЕ**

После приобретения независимости Грузия, Украина, Азербайджан и Молдова стали членами некоторых международных организаций. Несмотря на это, эти страны, оценивая сложивщуюся международную ситуацию, с целью проведения в жизнь общих и похожих целей в качестве региональной международной организации создали Организацию за демократию и экономическое развитие – ГУАМ. В данной статье дается краткий анализ некоторых факторов, повлиявщих на создание ГУАМ. А также проводиться краткий обзор на три этапа создания организации и на историю международных организаций.

**Ключевые слова:** ГУАМ, международная организация, история международных организаций, Консультативный Совет, Обьединение ГУУАМ

## HISTORY OF INTERNATIONAL ORGANIZATIONS AND GUAM

**A.O. ALIYEV**

**SUMMARY**

After gaining their independence Georgia, Ukrain, Azerbaijan and Moldova became member of some international organizations. In spite of this appreciating the international balance of forces in order to achieve their common and similar objects these countries set up GUAM – Organization for Democracy and Economic Development, as a regional international organization. This article provides a brief analysis of some factors affected the creation of GUAM. And also take a brief overview of three phases of the organization and the history of international organizations.

**Key words:** GUAM, international organization, history of international organizations, Consulting Forum, Union of GUUAM